AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 17 (1477), 25 - 31 may 2021-ci il
Qəzet 2001-ci ildən çıxır.



## Milli Olimpiya Komitəsində Kikboksinq Təşkilatları Ümumdünya Assosiasiyasının prezidenti ilə görüş olub

Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Bakıda səfərdə olan Kikboksinq Təşkilatları Ümumdünya Assosiasiyasının (WAKO) prezidenti Roy Beyker ilə görüşüb.

Görüşdə Milli Olimpiya Komitəsi (MOK) tərəfindən baş katibin səlahiyyətlərini icra edən Azər Əliyev və MOK-un digər rəsmi nümayəndələri iştirak edib.

Görüşdə Ç.Hüseynzadə Azərbaycanda kikboksinqə böyük maraq olduğunu vurğulayıb. O, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, dövlətimizin başçısı İlham Əliyevin qeyri-Olimpiya idman növlərinin inkişafına da diqqət göstərilməsini vacib hesab etdiyini bildirib. "Azərbaycan Milli Olimpiya Komitəsi qeyri-Olimpiya idman növlərinin təbliği istiqamətində də fəaliyyət göstərməkdə maraqlıdır", - deyən Ç.Hüseynzadə MOK-un prezidenti İlham Əliyevin yüksək nailiyyətlər qazanan idmançıları və idman mütəxəssislərini xüsusi mükafatlarla təltif etdiyini də xatırladıb. O bildirib ki, həmin idmançılar arasında xeyli sayda kikboksçu da var. Biz kikboksinqin Olimpiya Oyunlarının proqramına salınmasını istərdik. Çünki ölkəmizdə idmanın inkişafına töhfə verən atletlər arasında kikboksçular da var.

Səmimi görüşə görə təşəkkürünü bildirən WAKO-nun prezidenti Azərbaycan idmançılarının istər kikboksinq, istərsə də digər döyüş idman növlərində qazandıqları uğurların digər ölkələrə nümunə olduğunu bildirib. O, təmsil etdiyi idman növünün idman fəlsəfəsinə yenilik qatdığını da bildirib: "Kikboksinq yıxılmağı və ayağa qalxmağı öyrədir. İdmanın bu növündə qələbəyə qədər məğlubiyyətdən sonra da davam etməyin mümkünlüyü təlqin olunur".

Kikboksinqin gənc nəslin marağına səbəb olduğunu bildirən Roy Bayker vurğulayıb ki, bu, idman növü qadınlar arasında da populyardır. Əgər karatedə qadınların iştirakı 27, boksda cəmi 12 faizdirsə, kikboksinqdə bu göstərici 34 faizə çatır. Bu da bizi sevindirir. İldə kikboksinq üzrə 1300 tədbir keçirilir. Dünyada kikboksinqlə məşğul olan insanların sayı 5,2 milyona çatır.

İrlandiyalı qonaq həmçinin görüş zamanı son üç ay ərzində WAKO-nun böyüklər arasında dünya çempionatı və gənclər arası Avropa birinciliyinə ev sahibliyi əldə etmək üçün AKF tərəfindən görülən işləri fantastik adlandırıb. O bildirib ki, bu il keçiriləcək gənclərin Avropa çempionatına WAKO-nun 160 üzv ölkə arasında final mərhələsində hazırda cəmi iki ölkənin bu mübarizədə adı çəkilməsi, onlardan birinin Azərbaycan olması həddən artıq yüksək göstəricidir.

Tədbirin sonunda Çingiz Hüseynzadə WAKO prezidentinə MOK-un xatirə hədiyyələrini təqdim edib.

## Millimiz Bakıda keçirilən dünya yaş qrupları yarışlarını bürünc medalla başa vurdu

Azərbaycan daha bir beynəlxalq gimnastika yarışına uğurla ev sahibliyi etdi. Bu dəfə Milli Gimnastika Arenası qapılarını dünyanın müxtəlif ölkələrindən yeniyetmə və gənc aerobika gimnastlarının üzünə açıb.

Ölkəmizdə ilk dəfə keçirilən aerobika gimnastikası üzrə doqquzuncu dünya yaş qrupları yarışlarında 18 ölkədən 200 idmançı birincilik uğrunda mübarizə aparıb. Gimnastlar 12-14 və 15-17 yaş qruplarında fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup proqramları üzrə yarışıblar. Eləcə də, 15-17 yaşlı idmançılar aero dans proqramında da öz qüvvələrini sınayıblar.

Ölkəmizdə son dövrlərdə inkişaf etdirilməsinə baxmayaraq, aerobika gimnastikası üzrə təmsilçilərimiz iştirak etdikləri ilk dünya birinciliyində 3 proqram üzrə final mərhələsinə vəsiqə qazanmağı bacarıblar.



Gimnastika tariximizdə ilk dəfə olaraq bu miqyasda yarışda 12-14 yaş qrupunda çıxış edən gimnastımız Məryəm Topçubaşova fərdi proqramda bürünc medal qazanıb. Məryəm və onun qrup proqramı üzrə çıxış edən komanda yoldaşları Fidan İbrahimova, Evelina Kozlovskaya, Leyla Əhmədova və Aylin Əliyeva finalda beşinci olub. Üçlük proqramı üzrə finalda çıxış edən Sara Əlixanlı, Sənəm Kazımova və Aliyə İsmayılova isə yeddinci yerdə qərarlaşıblar.

Bundan başqa, 12-14 yaş qrupunda çıxış edən Məryəm Topçubaşova, Fidan İbrahimova və Evelina Kozlovskayadan ibarət daha bir üçlüyümüz 10-cu olub.

Dünya birinciliyində 15-17 yaş qrupunda fərdi proqramda yarışan Dilarə Qurbanova 16-cı, qrup proqramında mübarizə aparan Leyla Abdullazadə, Arzu Ağayeva, Rövşənə Bağırzadə, Leyla Bejanova və Emiliya Mahmudova 10-cu yerdə qərarlaşıblar.

## Tokio Olimpiadasında iştirak edəcək Azərbaycan idmançıları peyvənd olunacaq

Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançıları peyvəndlənmə prosesinə cəlb olunacaq. Bu sözləri Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə deyib.

O bildirib ki, koronavirus infeksiyasına yoluxmayan bütün idmançılar vaksinasiya prosesinə cəlb olunacaqlar. Xəstəliyə yoluxan və orqanizmində anticisim yaranan atletlərə peyvənd vurulmasına ehtiyac yoxdur.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax son çıxışında bildirib ki, idmançılar Atletlər Kəndində məskunlaşacaq. Tokio-2020-də iştirak edəcək idmançıların və komanda üzvlərinin 80 faizi Oyunlar başlayanadək vaksinasiya olunacaq.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Bu gün paytaxtımızda paracüdo üzrə Qran-Pri yarışına start veriləcək

Bu gün Bakıda paracüdo üzrə beynəlxalq Qran-Pri yarışına start veriləcək. 2 gün davam edəcək "IBSA Judo Grand-Prix Baku 2021"də 38 ölkədən 200 idmançı qüvvəsini sınayacaq. Yarış ilə bağlı paytaxta gələcək nümayəndələrin sayı idmançılarla birlikdə 350 nəfər olacaq. Turnirdə kişilərin yarışında Azərbaycanı 7 çəki dərəcəsi üzrə 9 idmançı təmsil edəcək.

Qadınların yarışında isə 6 çəki dərəcəsində 9 idmançımız yarışacaq.

Azərbaycan, Rusiya, Türkiyə, Ukrayna, Braziliya, Yaponiya və Özbəkistan Bakı Qran-Prisinə ən böyük nümayəndə heyətləri ilə qatılacaqlar.



### Anons

Təşkilatçısı olduğumuz futzal yarışı uzun illərdir yaddaşlardan silinmir
Səh. 3

*Tofiq Xanəliyev:*
**"Ömrün dəyəri rəqəmlərlə deyil, həyatı necə yaşamağınla qiymətləndirilir"**
Səh. 4

**Son nəfəslərini Olimpiya Oyunlarında verən idmançılar**
Səh. 7

Gimnastika

## Bədii gimnastlarımız Rumıniyada 7 medal əldə etdilər



Rumıniyanın paytaxtı Buxarestdə bədii gimnastika üzrə “Irina Deleanu Cup” beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi Kamilla Seyidzadə, Məryəm Əliyeva, Alina Məmmədova, Gövhər İbrahimova və Aydan Rəhimova təmsil ediblər. Qızlarımız bu yarışda uğurla çıxış edərək, komandaya müxtəlif əyarda 7 medal qazandırıblar. 2007-ci il təvəllüdlü gimnastların yarışında çıxış edən Alina Məmmədova gürzlərlə icra etdiyi kompozisiyasına görə fəxri kürsünün ilk pilləsinə yüksəlib. A.Məmmədova topla çıxışına görə üçüncü olub. Onun həmyaşıdı Kamilla Seyidzadə topla gümüş, halqa ilə çıxışına görə bürünc medal qazanıb.

Qızlarımız bu yarışdan 11 medal qazanıblar. Belə ki, böyüklər arasında çıxış edən Arzu top, halqa və gürzlərlə çıxışına görə 2-ci, çoxnövçülük nəticəsinə əsasən 3-cü yerdə qərarlaşıb. Onun Komanda yoldaşı Nərminə lentlə 3-cü olub, halqa ilə çıxışına görə isə 4-cü yerdə qərarlaşıb.

Gənclər yaş qrupunda iştirak etmiş Kamilla Seyidzadə tam bir medal dəstini əldə edib: topla çıxışına görə 1-ci, lentlə 2-ci və çoxnövçülükdə 3-cü yerdə qərarlaşıb. Onunla eyni yaş qrupunda yarışmış Alina isə həm çoxnövçülük, həm halqa, həm də gürzlərlə 2-ci olub.



2009-cu il təvəllüdlü gimnastlar arasında yarışan təmsilçilərimiz da mükafatçılar sırasında yer alıblar. Məryəm Əliyeva halqa ilə fəxri kürsünün birinci, topla çıxışına görə isə üçüncü pilləsində yer alıb. Onunla eyni yaş qrupunda çıxış edən Aydan Rəhimova da halqa ilə bürünc medal əldə edib. Gövhər İbrahimova isə ən yaxşı nəticəsini halqa ilə göstərərək, bu proqram üzrə 6-cı olub.

## Yığma komandamız onlayn yarışda uğurla çıxış edib

Bədii gimnastika üzrə yığma komandamızın üzvləri Bolqarıstan Gimnastika Federasiyasının təşkil etdiyi bədii gimnastika üzrə onlayn turnirdə iştirak ediblər.

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, sayca 3-cü olan bədii gimnastika üzrə “Prize of Julieta Shishmanova” turnirində ölkəmizi yığmamızın üzvləri Arzu Cəlilova, Nərminə Səmədova, Alina Məmmədova və Kamilla Seyidzadə təmsil edib.

## İdman gimnastlarımızın Budapeşt sınağı

Mayın 22-23-də Macarıstanın paytaxtı Budapeşt şəhərində idman gimnastikası üzrə beynəlxalq turnir keçirilib.

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, bu yarışda ölkəmizi kişi idman gimnastikası üzrə yığma komandanın üzvləri Mənsum Səfərov, Anar Həsənov, Aydın Əlizadə, Ramin Dəmirov və Rəsul Əhmədzadə təmsil edib.

Bu yarışda gimnastlarımız komanda hesabına 10 medal yazdırıblar.

Medallardan təkcə 6-sı Aydının payına düşür. Çoxnövçülük yarışlarında gümüş medal qazanmış Aydın, bu gün keçirilmiş final mərhələsində halqalarla fəxri kürsünün 1-ci, dayaqlı tullanma, sərbəst hərəkətlər, turnikdə çıxışına görə 2-ci, paralel qollarda isə 3-cü pilləsinə yüksəlib.

Rəsul çoxnövçülük və sərbəst hərəkətlərdə bürünc medal, dəstəli at üzərində hərəkətlərə görə isə gümüş medal qazanıb. Onun komanda yoldaşı Ramin isə halqalar üzərində hərəkətlərdə 2-ci olub.

Formula 1

## Azərbaycan Qran-Prisində jurnalistlərin fəaliyyət qaydalarına dair seminar keçirilib

“Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) bu il iyunun 4-6-da Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi və həmin yarışda media nümayəndələrinin fəaliyyət qaydalarına dair yenilənmiş məlumatların çatdırılması məqsədilə yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri üçün seminar təşkil edib.



Azərbaycan Qran-Prisinə cəlb edilməsinin nəzərdə tutulduğunu və hazırda onların işə başladıqlarını qeyd edib.

Tədbirdə BŞH-nin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ayan Nəcəf-Ağayeva mətbuat nümayəndələrinə bu nüfuzlu yarış və turnirdə media işçilərinin fəaliyyət qaydalarına dair ətraflı məlumat verib.

A.Ağayeva bildirib ki, Formula 1-ə maraq göstərənlər yarış barədə mediadan məlumat aldıqları üçün Qran-Pri ilə bağlı mediada fəallıq artıb. Azərbaycandakı yarışın təqvimdə öz yerini qorumasının sevindirici hal olduğunu diqqətə çatdıran BŞH rəsmisi Azərbaycan Qran-Prisinin müddətinin uzadılıb-uzadılmayacağına hələ aydınlıq gəlmədiyini söyləyib.

O vurğulayıb ki, Azərbaycan Qran-Prisinə 1300-dək marşal cəlb olunacaq. Həmin marşallardan 50-si əcnəbidir. Onlar yarış müddətində Atletlər Kəndində qalacaqlar.

Yarışda könüllülərin fəaliyyətindən danışan BŞH rəsmisi ümumilikdə 500 könüllünün

Ayan Nəcəf-Ağayeva həmçinin Formula 1 üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar olaraq Bakının mərkəzi yolları bir həftə bağlı olacağını da bildirib.

A.Ağayeva tədbir zamanı həmçinin bildirib ki, Bakıda Qran-Pri ilə yanaşı, Formula 2 yarışı da keçiriləcək.

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

Güləş

## Sərbəst güləş üzrə millimiz Avropa çempionatında üçüncü oldu

Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U-23 Avropa çempionatında sərbəst güləş üzrə mübarizəyə yekun vurulub.

Qitə birinciliyinə 8 güləşçi ilə yollanan millimizin 7 üzvü fəxri kürsüyə qalxıb.

Məşqçilər Arif Abdullayev və Rövşən Hacıyevin rəhbərliyi altında mötəbər yarışda iştirak edən komandamız medal rekordunu yeniləyib. Belə ki, 2015-ci ildən keçirilən analoji turnirdə sərbəst güləş üzrə millimiz heç vaxt bu qədər medal qazanmayıb.

Avropa çempionatında Cəbrayıl Hacıyev (70 kq) qızıl, Əliabbas Rzazadə (57 kq), Orxan Abasov (86 kq) və Osman Nurməhəmmədov (92 kq) gümüş, Zirəddin Bayramov (65 kq), İslam İlyasov (97 kq) və Vahid Qalayev (125 kq) bürünc medal qazanıblar. Yekunda yığmamız 140 xal toplayıb və Avropa üçüncüsü olub. Rusiya 196 xalla birinci, Türkiyə isə 150 xalla ikinci yeri tutub.

Sərbəst güləşçilərin yarışından sonra Skopyedə yunan-Roma güləşçilərimiz mübarizəyə başlayıblar. Mübarizəyə dördədbir finaldan qoşulan yunan-Roma güləşçimiz Zaur Əliyev (55 kq) Rumıniyadan olan rəqibinə qalib gələrək yarımfinala yüksəlib. Rusiya pəhləvanı ilə gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmadan da qalib ayrılan Z.Əliyev adını finala yazdırıb. Güləşçimiz həlledici görüşdə Türkiyə təmsilçisi ilə üz-üzə gəlib. Qarşılaşmada əzmkar qələbə qazanan güləşçimiz Avropa çempionu olub.

Güləşçimiz Laçın Vəliyev (87 kiloqram) ilk mərhələdə Polşadan olan rəqibini üstələyib. Ancaq daha sonra Rusiya güləşçisinə uduzub. Rəqib finala yüksəldiyi üçün L.Vəliyev mayın 22-də təsəlliverici görüşdə iştirak hüququ əldə edib. L.Vəliyev Yunanıstan güləşçisinə qalib gəlsə də, macarıstanlı həmkarına uduzub.

Komandamızın digər üzvü Həsrət Cəfərov isə ilk mərhələdə rumıniyalı rəqibinə qalib gəlib. Gürcüstan pəhləvanını sonuncu xal prinsipinə əsasən sıradan çıxaran həmyerlimiz yarımfinalda Macarıstan idmançısına minimal fərqlə uduzub. Rəqib yarımfinaladək heç bir görüş keçirmədiyi üçün, yeni Fransa və Avstriya güləşçiləri xalça üzərinə çıxmadığı üçün Həsrət birbaşa Avropa çempionatının bürünc medalına sahib çıxıb.

Karate

## Xorvatiyada Avropa çempionatına yekun vurulub

Xorvatiyanın Poreç şəhərində karate və parakarate üzrə Avropa çempionatları keçirilib. Karate üzrə Avropa çempionatını Azərbaycan komandası 4 medalla başa vurub. Belə ki, idmançılarımızdan İrina Zaretska (68 kq) bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Millimizin üzvləri Rafael Ağayev (75 kq) və Pənah Abdullayev (84 kq) gümüş medal, kumite milli komandamız isə bürünc medal əldə edib.

Bu nəticə ilə millimiz Türkiyə (6 qızıl, 2 gümüş, 1 bürünc medal), Almaniya (2 qızıl, 2 gümüş, 1 bürünc medal) və İspaniya (1 qızıl, 3 gümüş medal) yığmalarından sonra 4-cü sırada qərarlaşıb.

Qırx yeddi ölkədən 513 karateçinin iştirak etdiyi qitə çempionatında Azərbaycan komandası 15 idmançı ilə təmsil olunub.

Parakarate üzrə Avropa çempionatını isə millimiz 3 medalla başa vurub. Belə ki, təmsilçimiz Emilia Mitilinova birinci, Sahib və Eldar Əhmədov üçüncü yeri tutublar. Bu nəticə ilə komandamız ümumi hesabda üçüncü pillədə qərarlaşıb.



Qitə çempionatında 5 qızıl, 2 gümüş medal qazanan İspaniya yığması birinci, aktivində 1 qızıl, 1 gümüş medal olan Macarıstan yığması isə ikinci yeri tutub.

Parakarate üzrə qitə çempionatında 15 dövlətdən 49 idmançı iştirak edib. Turnirdə Azərbaycanı 5 parakarateçi təmsil edib.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti və Avropa Karate Federasiyası (EKF) icraiyyə komitəsinin üzvü Yaşar Bəşirov qitə çempionatlarının mükafatlandırma mərasimində iştirak edib. Tokio Yay Olimpiya Oyunlarında karate yarışlarını idarə etməyə dəvət alan beynəlxalq hakim və EKF Hakimlər komitəsinin üzvü Cahangir Babayev Avropa çempionatında final görüşlərini idarə edən referilər arasında olub.

Azərbaycan Respublikasının Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov yarış günlərində komandaya dəstək vermək üçün Avropa çempionatlarında idmançılarımızla bir yerdə olub. Komanda ilə görüşdə F.Qurbanov qarşıdakı yarışlarda idmançılara uğurlar arzulayıb.

Yarışdan sonra EKF-in bayrağı növbəti Avropa çempionatının təşkilatçısı Türkiyə Karate Federasiyasının rəsmilərinə verilib.

## Yaşar Bəşirov yenidən EKF-in İcraiyyə komitəsinin üzvü seçilib

Avropa Karate Federasiyasının (EKF) İcraiyyə Komitəsinin üzvü Yaşar Bəşirov növbəti 4 il müddətində bu vəzifədə fəaliyyətini davam etdirəcək. Azərbaycan Milli Karate Federasiyasının mətbuat xidmətindən “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, o, Xorvatiyanın Poreç şəhərində EKF-in konqresində, təşkilatın 53 üzv ölkəsindən yığıncağa qatılan 43 dövlət nümayəndələri arasında seçkidə böyük üstünlüklə qalib gəlib.




Yığıncaqda bu ilin avqustunda Finlandiyanın Tampere şəhərində, 2022-ci ildə isə Çexiyanın paytaxtı Praqada yeniyetmə və gənclərin Avropa çempionatının, eləcə də, gələn il Türkiyənin Qaziantep şəhərində təşkil olunacaq böyüklərin qitə çempionatının rəsmi təqdimatı keçirilib.

Daha sonra 2020-2021-ci illərin maliyyə hesabatı, 2021-2022-ci illərin büdcəsi və EKF İdman komissiyasının məruzəsi dinlənilib.

EKF prezidenti Antonio Espinos təşkilatın idarəedici orqanına yeni seçilən üzvləri təbrik edərək onlara uğurlar arzulayıb.

# OLİMPİYA 20 DÜNYASI



# Təşkilatçısı olduğumuz futzal yarışı uzun illərdir yaddaşlardan silinmir

Yarandığı gündən ölkə idmanının və Olimpiya Hərəkatının təbliğində xüsusi fəallıq nümayiş etdirən "Olimpiya dünyası" qəzeti bir sıra yarışların təşkilatçısı olub. Belə yarışlardan biri də KİV nümayəndələri arasında "İdman" qəzeti ilə birgə təşkil olunan futzal yarışı olub. Nəşrə başladığı üç ildən sonra qəzetimiz həmkarlarımızı bir araya toplayaraq, onları fuzal yarışının iştirakçısına çevirdi.

2003-cü ilin aprelin 5-dən mayın 3-dək davam edən yarışda 14 komanda qüvvəsini sınayıb. Onlardan 11-i mətbuatı, 2-si elektron KİV-i, 1-i isə mətbuat yayımı firmasını təmsil edib.

Yarışlar dörd qrup üzrə keçirilib. A və B qrupunda 4, C və D qrupunda isə 3 komanda mübarizə aparıb.

A qrupunda "Olimpiya dünyası", "Futbol +", "Həftə içi", "Super market", B qrupunda isə "Lider", "Çempion" və "Politika" komandaları yer alıb.

Turnirin C qrupunda "Jurnalist", "İdman" FK, "Risk", "X - press - Elita" komandaları 1/4 finala vəsiqə qazanmaq uğrunda mübarizə aparıblar.

"Telefortuna", "Üç nöqtə" və "Azadlıq" komandaları isə D qrupunda növbəti mərhələyə yüksəlmək üçün üz-üzə gəlib.

Hər qrupda mübarizə aparan, 1 və 2-ci yerləri tutan komandalar 1/4 finala vəsiqə qazanıblar.

Hər həftənin şənbə və bazar günləri təşkil olunan yarışlar 1/4 final mərhələsindən sonra "uduzan çıxır" sistemi ilə keçirilib.

Yarışları tanınmış hakimlər Azad Hüseynov (o, bir neçə il ərzində futzal üzrə FİFA hakimi olub, bir müddət əvvəl Polşada keçirilən rəsmi beynəlxalq turnirin oyunlarını idarə edib) və Əvəz Şıxıyev idarə ediblər.

Qrup mərhələsindəki nəticələrə əsasən, "Futbol+" və "Həftə içi" komandaları A qrupunda ilk iki yeri tutaraq 1/4 finala vəsiqə qazanıblar. "Olimpiya dünyası" komandası isə 3 xal toplayaraq qrupda 3-cü yeri tutub.

B qrupunda isə "Lider" və "Çempion" komandaları ilk iki yeri tutaraq növbəti mərhələyə yüksəliblər.

"Jurnalist" və "İdman" C, "Telefortuna" və "Üç nöqtə" komandaları isə D qrununun qalibləri kimi adlarını 1/4 finala yazdırıblar.

Bu mərhələnin ilk oyunu "Futbol+" və "İdman komandaları arasında olub. Maraqlı mübarizə şəraitində keçən görüşdə "Futbol+" komandası 6:3 hesabı ilə qalib gələrək adını yarımfinalçılar siyahısına yazdırıb.

1/4 final mərhələsinin növbəti oyununda "Jurnalist"və "Həftə içi" komandaları qarşılaşıblar. Oyunda böyükhesablı qələbəyə sevinən "Həftə içi" kollektivi adını yarımfinala yazdıran ikinci komanda olub.

1/4 final mərhələsinin növbəti oyunu "Lider" və "Üç nöqtə" komandaları arasında təşkil olunub.

Görüşün əsas vaxtı 1:1 hesabı ilə başa çatdığından qalibi müəyyənləşdirmək üçün penalti zərbələrinə ehtiyac duyulub. Penalti zərbələrini daha dəqiq yerinə yetirən "Üç nəqtə" komandası 3:2 hesabı ilə qalib gəlsə də, yarımfinala yüksələ bilməyib. Buna səbəb komandanın heyətində peşəkar futzalçının çıxış etməsinin təsdiqlənməsi olub. Bu səbəbdən də "Üç nöqtə" komandasına texniki məğlubiyyət verilib. Beləliklə, "Lider" komandası yarımfina yüksəlməyə müvəffəq olub.

Bu mərhələnin son oyununda isə "Telefortuna" "Çempion" komandasına 2:0 hesabı ilə qalib gələrək yarımfinala adlayıb.

Turnirin yarımfinal mərhələsində "Lider" "Futbol+" komandasına, "Telefortuna" isə "Həftə içi"nə 3:1 hesabı ilə qalib gələrək finalda bir-birlərinə rəqib olublar. Final görüşündə isə "Lider"təmsilçiləri "Telefortuna"dan üstün olub - 2:1



Fəxri mükafatlar uğrunda yarış barəsində yazını oxucularımıza təqdim edirik.

## KİV-2003 futzal turniri "Lider"in qələbəsi ilə başa çatdı

Yarışın finalına ilk üç mərhələni (qrup, 1/4 və 1/2 final) uğurla adlayan AzTV-nin "Telefortuna" və Lider telekanalının eyni adlı komandası vəsiqə qazanıblar.

Mayın 3-də Maştağa Olimpiya İdman Mərkəzində bayram əhval-ruhiyyəsi hökm sürüb. Turnirin ilk 4 yerinin sahibini müəyyən edəcək qarşılaşmaları izləmək üçün zala xeyli futzalsevər toplaşmışdı. Azarkeşlərin hələ matçlar başlamamışdan komandaları qələbəyə ruhlandırması xüsusilə diqqəti cəlb edirdi.

Günün ilk matçı rəmzi xarakter daşıyırdı. Açılış matçında olduğu kimi, yarışın son günündə də jurnalistlər yığması və Kiyev "Dinamo"sunun veteranlarına qarşı oyuna hazırlıqlarını davam etdirən "Neftçi" komandasının veteranları yoldaşlıq görüşündə bir daha qüvvələrini sınadılar. Veteran futbolçuların komandası Oqtay Abdullayev, İsgəndər Cavadov, Rafiq Bağırov, Əli Rəhmanov, Rüstəm Rəhimov və Şamil Heydərovdan təşkil olunmuşdu. Maşallah Əhmədov və Asif Əliyev də Maştağa Olimpiya İdman Mərkəzinə gəlsələr də, zədəli olduqları üçün meydana çıxmadılar.

Jurnalist yığmasının heyətində isə Elçin Babayev, Tahir Hümmətov, Xaqani Abbasov ("Olimpiya dünyası"), Sərxan Danyalov ("Supermarket"), Ceyhun Musaoğlu ("Politika"), Rasim Mədət ("Üç nöqtə"), Raqif Abbasov ("İdman"), Əhməd Mustafayev ("X-press-Elita"), Alim Məmmədov ("Risk"), Mahir Süleymanov ("Jurnalist"), Zaur Əzizov ("Çempion"), Kənan Həsənov, Elman Məmişov və Samir Axundov ("Futbol +") yer almışdılar.

Bu görüşü tanınmış məşqçi Ağasəlim Mircavadovun "yetirmələri" üçün bir sınaq matçı adlandırmaq da olardı. Bunu qarşılaşma başlamamışdan əvvəl Ağasəlim Mircavadov özü də təsdiq etdi. Onun dediyinə görə, bu oyunda, əsasən, 60-70-ci illərdə oynamış futbolçulara yer verməsi onların fiziki gücünə bələd olmağından irəli gəlirdi. Rauf Salyamovun olmaması səbəbindən isə görüşdə qapıçı əlcəklərini Əli Rəhmanov geyinməli oldu.

Oyun gözlənildiyi kimi, veteranların hücumları ilə başladı. Baş məşqçinin taktiki sxeminə uyğun olaraq, bütün hücumları İsgəndər Cavadov tamamlayırdı. Jurnalist yığması futzalçılarının ilk dəfə bir yerdə oynamalarına baxmayaraq, heç də oyun pis alınmırdı. Onların hücumlarının qarşısını isə veteranlar məharətlə alırdılar. "Neftçi"nin əks-hücumları azarkeşlər tərəfindən xüsusi alqışlarla qarşılanırdı. Məhz belə hücumların birində İsgəndər Cavadov hesabı açmağa yaxın olsa da, Elçin Babayevin gözəl reaksiyası buna imkan vermədi.

İlk dəqiqələrdən "keçilməz sədd"ə rast gələn jurnalistlər artıq tez-tez hücumlar təşkil edir, müdafiədə inamla oynayırdılar. İlk hissə heç-heçə başa çatsa da, ikinci hissənin 5-ci dəqiqəsində "Risk" komandasının kapitanı Alim Məmmədov uzaq məsafədən gözəl zərbə ilə KİV təmsilçilərini hesabda irəli çıxardı. Gözlənilmədən məğlub vəziyyətə düşən veteranlar bütün heyətlə hücuma atıldılar. Ağasəlim Mircavadovun komandasını əks-hücumda yaxalayan Zaur Əzizov fərqi daha da artırdı - 2:0.

Bundan 5 dəqiqə sonra hesab bərabərləşdi: bu müddətdə Oqtay Abdullayevin dəqiq zərbələri sayəsində top iki dəfə rəqib qapısından keçdi. Bəli, matçın yoldaşlıq xarakteri daşımasına baxmayaraq, komandaların məğlub olmaq istəməməsi diqqətdən yayınmırdı. İlk görüşdə 7:2 hesabı ilə məğlub olan jurnalistlər qələbə üçün var qüvvə ilə çalışırdılar. İsgəndər Cavadova qarşı xüsusi müdafiəçinin oynaması onun fərqlənməsinə mane olurdu.

Jurnalistlər komandasının qol vurmaq cəhdləri də alınmırdı. Amma əks-hücumların birində Kənan Həsənovun ötürməsindən sonra Tahir Hümmətov dəqiq zərbə ilə jurnalistləri hesabda yenidən irəli çıxardı.

Veteranların heyətində Rafiq Bağırov və Oqtay Abdullayevin hücuma qoşulmaları rəqib qapısı önündə təhlükəli vəziyyətlərin yaranması ilə yadda qalırdı. "Neftçi"nin hücumları son dəqiqələrdə öz bəhrəsini verdi. İsgəndər Cavadovun bu dəfə də meydançada öz məharətini göstərməsi tamaşaçılar tərəfindən xüsusi alqışlarla qarşılandı - 3:3.

## Məğlub olmayan iki komandanın final görüşü

"Futbol +" və "Həftə içi" komandaları 3-cü yerin sahibini müəyyənləşdirməli olsalar da, ikincilərin matça gəlməmələri səbəbindən oyun baş tutmadı. Nəticədə qrup mərhələsində rəqibimiz olmuş "Futbol +" bürünc medallar qazandı. Qeyd edək ki, turnirdə inamlı oyun nümayiş etdirən həmkarlarımız, həqiqətən də, kubok və medallara layiq idilər.

Saatlar 15:30-u göstərərkən zalda alqış səslərindən az qala qulaqlar tuturdu. Çünki bu zaman meydançaya turnirin məğlub olmayan iki komandası - "Lider" və "Telefortuna" çıxırdılar. İkincilər bir neçə dəfə KİV təmsilçiləri arasında yarışların çempionu olsalar da, "Lider" telekanalının futzalçıları ilk dəfə idi ki, finala yüksəlirdilər. Bu səbəbdən oyunun gərgin keçəcəyi şübhəsiz idi.

Qarşılaşmanın ilk dəqiqələri kəşfiyyat xarakteri daşıyırdı. Komandalar hücuma keçmək istəsələr də, bu, heç cür alınmırdı. Çünki rəqiblər bir-birlərini meydanın mərkəzində qarşılayaraq, təhlükəli vəziyyətlərin yaranmasına mane olurdular. Azarkeşlərin öz komandalarını qələbəyə ruhlandırması futzalçıların qol vurmaq arzusu ilə üst-üstə düşsə də, son anda qapılara vurulan zərbələr ya qeyri-dəqiq olur, ya da qapıçılar inamla oynayırdılar. İlk 10 dəqiqədən sonra təşəbbüsə yiyələnən "Lider" komandası tezliklə hesabda irəli çıxdı - 1:0.

Dəqiqələr ötdükcə oyun daha maraqlı olurdu. "Telefortuna"nın hücumlarının qarşısını inamla alan rəqib çətinlik çəkmədən təhlükəli vəziyyələr yaradırdı. "Lider" komandasının bir neçə dəfə real qol vəziyyətindən yararlana bilməməsi onların taym-aut götürməsi ilə nəticələndi. Bir dəqiqəlik fasilədən sonra "Lider" ilk hücumda fərqi daha da artırdı - 2:0.

"Telefortuna" isə məğlubiyyətlə barışmaq istəmirdi. Onların əsəbiləşmələri və hakimlərin bəzi qərarları ilə razılaşmamaları diqqətdən yayınmırdı. Birinci hissənin sonlarında matçın fəallarından olan Yəhya İsmayılov müdafiəçiləri və qapıçını aldatsa da, sonuncunun kobud oynaması komandasını üçüncü qoldan xilas etdi.

Təşkilatçıların hamıya şən bayram əhvalı bəxş etmək üçün Zahid Vəliyevin rəhbərlik etdiyi "Doqquz tərəf" uşu klubunun yetirmələrini turnirin bağlanış mərasiminə dəvət etmələri tamaşaçıların ürəyincə oldu. Oyunun fasiləsində onların 10 dəqiqə davam edən həyəcan dolu ecazkar tryukları, sözün həqiqi mənasında, futzalsevərlərin gurultulu alqışları ilə müşayiət olundu.

İkinci hissədə "Telefortuna" komandasının hücum taktikası tezliklə öz bəhrəsini verdi. Belə ki, artıq özünü itirən "Lider" komandası müdafiədə kobud səhvlərə yol verir, hücumda zəif təsir bağışlayırdı. 8-ci dəqiqədə müdafiəçilərdən asanlıqla yayınan Aslan Əhədov qapı istiqamətində güclü zərbə vurdu. Qapıçı topu geri qaytarsa da, Rüfət Balakişiyev təkrar zərbə ilə "Telefortuna"nın təsəlli qolunu vurdu - 2:1.

Fərqi minimuma endirən AzTV futzalçıları hesabı bir neçə dəfə bərabərləşdirməyə yaxın olsalar da, bundan istifadə edə bilmədilər.

Beləliklə, aprelin 5-dən start götürən turnir sona çatdı. Qalib adına isə "Lider" komandası layiq görüldü. Oyundan sonra turnirin təntənəli mükafatlandırma mərasimi keçirildi. İlk olaraq söz alan "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev bu turnirin keçirilməsini media işçiləri arasında dostluq və səmimiyyətin daha da möhkəmlənməsi yolunda uğurlu addım kimi qiymətləndirdi. O, yarışda iştirak edən komandalara, onların təmsil etdikləri kütləvi informasiya vasitələrinin rəhbərlərinə və turnirin keçirilməsində yaratdığı gözəl şəraitə görə Maştağa Olimpiya İdman Mərkəzinin direktoru Rasim Ağayevə öz minnətdarlığını bildirdi və qeyd etdi ki, ölkəmizdə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni Olimpiya İdman Komplekslərinin istifadəyə verilməsi belə yarışların keçirilməsini, ümumilikdə idmanın kütləviləşməsini təmin edən mühüm amillərdəndir. Daha sonra qalibləri təbrik edən AGİTN-nin İdman Baş İdarəsinin rəis müavini Mirkamil Rəhimov son illərdə ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini vurğuladı, Azərbaycanın dünya idmanı ailəsinə inteqrasiya olunduğunu bildirərək, yarışın qaliblərinə ürək sözlərini çatdırdı.

Sonda yarış iştirakçılarını və qalib komandaları salamlayaraq, yarışın nəticələrini elan edən "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyev turnirin gərgin keçdiyindən söhbət açdı.

Qaliblər diplom və medallarla təltif edildilər. Turnirdə çıxış edən 14 komanda yarışda fəal iştirak etdiyi üçün diplomlarla mükafatlandırıldı. Elnur Əşrəfoğlu turnirin "ən məhsuldar oyunçusu", Sərxan Danyalov "Ən yaxşı oyunçu", Samir Axundov isə "Ən yaxşı qapıçı" adlarına layiq görülərək, diplom və hədiyyələrə sahib oldular.

Sonda Əli Rəhmanov "Neftçi" veteran futbolçuları adından yarışın təşkilatçılarına kubok bağışladı.

Yubiley - 60

# Tofiq Xanəliyev:
# “Ömrün dəyəri rəqəmlərlə deyil, həyatı necə yaşamağınla qiymətləndirilir”

***Mayın 19-da “Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının sədri “Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi” Tofiq Xanəliyevin 60 yaşı tamam olub. Tofiq Xanəliyevin respublikada bədən tərbiyəsi və idman hərəkatının bilavasitə, universitet idmanın inkişafında, kadrların hazırlanması sahəsində böyük xidmətləri var. 38 ilə yaxındır ki, idman sahəsində çalışan T.Xanəliyev 1982-1986-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunda təhsil alıb. O, əmək fəaliyyətinə 1986-cı ildə Lerik Rayon Şahmat və Dama Məktəbinin direktoru vəzifəsində başlayıb. Tofiq müəllim işlədiyi müddət ərzində bir sıra məsul vəzifələrdə çalışıb.***



T.Xanəliyev 1989-1992-ci illərdə Ümumittifaq Könüllü Bədən Tərbiyəsi -İdman Cəmiyyəti Respublika Şurasının (ÜKBTİC) baş təlimatçısı vəzifəsində işləyib. 1992-ci ildə “Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurası yaradılıb və Tofiq Xanəliyev orada baş təlimatçı, şöbə müdiri və sədr müavini kimi vəzifələrdə fəaliyyət göstərib.

2007-ci ildə “Gənclik” Tələdə İdman Cəmiyyəti Respublika Şurasının Hesabat seçki konfransı keçirilib və Tofiq Xanəliyev bu təşkilatın sədri seçilib. Həmin ildən bu günə kimi “Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının sədri vəzifəsində çalışır. Onun cəmiyyətə rəhbərlik etdiyi müddət ərzində minlərlə tələbə gənc kütləvi surətdə bədən tərbiyəsi və idmana cəlb olunub, cəmiyyətin idmançıları respublika daxili yarışlarla yanaşı, bir sıra beynəlxalq yarışlarda da yüksək nəticələr əldə ediblər.

İşlədiyi müddət ərzində “Gənclik” Tələbə İdman Cəmiyyətinin Respublika Şurası Beynəlxalq Universitet İdman Federasiyasının (FİSU), həmçinin, Avropa Universitet İdman Assosiasiyasının (EUSA) üzvü seçilib. Cəmiyyətin tələbə idmançıları bu mötəbər idman qurumlarının tədbirlərində dəfələrlə yüksək nəticələr əldə ediblər.

O, idman sahəsində göstərdiyi xidmətlərə görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Gənclər və İdman Nazirliyinin və eləcə də, Beynəlxalq Universitet İdman Federasiyasının fəxri fərmanları ilə təltif olunub. 2011-ci ildə ona “Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi” adı verilib. 2012 -ci ilin yekunlarına görə rəhbərlik etdiyi “Gənclik” Tələbə İdman Cəmiyyəti ilin ən yaxşı idman cəmiyyəti adına layiq görülüb. Tofiq Xanəliyev Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilib. 2019-cu ildə Beynəlxalq fəxri professor adına layiq görülüb.



Hər zaman idmançıları və idman mütəxəssislərini diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti bu günlərdə yubilyarla əlaqə saxlayıb, onu təbrik edib. Ömrünün 60-cı baharına qədəm qoyan təcrübəli mütəxəssis Tofiq Xanəliyevlə müsahibəni oxucularımıza təqdim edirik.

***- Tofiq müəllim, qəzetimiz adından Sizi yubiley münasibətilə təbrik edirik. Artıq ömrün yeni çağına qədəm qoydunuz. 60 yaşın pəncərəsindən dünya necə görünür?***

- Çox sağ olun. 60 yaş insanın artıq ahıl vaxtı hesab olunur. Buna qocalıq demək olmaz. Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir müəllim həmişə deyir ki, 60 yaşına kimi biz cavanıq. Bu yaşdan sonra isə insanın ahıl dövrü başlayır. Düzünü desəm, heç hiss etmirəm ki, 60 yaşım var. Şükür Allaha, həyat gözəldir. Yaşayıb, yaratmaq, işləmək gözəldir. Hələ ki, özümü yaxşı hiss edirəm. Mənə elə gəlir ki, bu yaşdan sonra insanın həyatında yeni bir dövr başlayır. Həm işdə, həm ailədə, həm də dostluqda insanın dünyaya baxışı dəyişir. Çalışacağam ki, qismətimə yazılan ömür payımı gözəl yaşayım, həyatdan zövq alım. Bundan başqa çalışıb, müsbət əməllərlə də yadda qalmaq lazımdır. Yalnız yaxşı, xeyirxah işlərlə qalan ömrümü davam etdirmək istəyirəm.

***- Doğum gününüzü necə qeyd etdiniz?***

- O vaxtı 50 illik yubileyimi geniş şəkildə qeyd etmişdim. Amma bu dəfə pandemiyaya görə kütləvi toplaşmağa icazə verilmir. Ad günümü yalnız iş yoldaşlarımla və ailəmlə qeyd etdim. Yubileylə bağlı çoxsaylı təbriklər aldım. Fürsətdən istifadə edib, məni təbrik edən hər kəsə təşəkkürümü bildirirəm.

***- Tofiq müəllim, həyatınızı kitab kimi vərəqləsəniz ən çox hansı illərdə əl saxlayarsınız?***

- 60 il Tanrının verdiyi ömür payıdır. Ömrün dəyəri rəqəmlərlə deyil, həyatı necə yaşamağınla, insanlara dəyər verməyinlə, dəyər görməyinlə qiymətləndirilir. Şükür Allaha bu gün mənə dəyər verən dostlara, iş kollektivinə və gözəl ailəyə sahibəm. Sualınıza gəlincə isə bu gün 60-dan geri boylananda əsasən, yeniyetməlik, gənclik, tələbəlik illərinə qayıtmaq istəyirəm. Fikrimcə, bu, təkcə məndə yox, hər kəsdə belədir. Şükür Allaha narazılığım yoxdur. Gözəl yaş dövrüdür. Yaşayıb, işləmək olar.

***- Bəs, həyata keçməyən arzunuz necə, varmı?***

- İnsan ömrü boyu arzularla yaşayır. Əbəs yerə deməyiblər ki, insanı yaşadan çatmaq istədiyi arzularıdır. Təbii ki, mənim də arzularım olub. Demək olar ki, arzularımın əksəriyyəti həyata keçib. Düzdür, kədərli günlərim də olub. Lakin indi kədərli günlər haqda danışmaq istəmirəm. Bundan sonra bir baba kimi arzum var ki, nəvə toyu görüm. İş sahəsində də şükür Allaha nailiyyətlərimiz var. Əlbəttə istərdim ki, bundan da uğurlu nailiyyətlər əldə edək. İlk günlərdən bu təşkilatın fəaliyyətində iştirak etmişəm. İstərdim ki, təşkilatımız daha da tanınsın, böyük işlər görək, tələbə-gənclərin idman sahəsində fəaliyyətini bir qədər də genişləndirək.

***- Tofiq müəllim, özünüz haqda danışdıq. Bir qədər də ailəniz barəsində məlumat verərdiniz.***

- Mənim iki övladım olub. Qız övladım ailə həyatı qurduqdan bir il sonra dünyasını dəyişdi. Onun indi bir oğlu yadigar qalıb. Hazırda 14 yaşı var. Bundan başqa bir oğlum var, adı Orxandır. O da mənim sahəmi davam etdirir, idman sahəsində çalışır. Onun da üç qız övladı var. Bütün nəvələrimi çox istəyirəm.

***- Tofiq müəllim, uzun müddətdir ki, “Gənclik” Tələbə İdman Cəmiyyətinə rəhbərlik edirsiniz. Bu illər ərzində sizin üçün ən unudulmaz universiada hansı olub?***

- 2007-ci ildən bu günə kimi “Gənclik” Tələbə İdman Cəmiyyətinə rəhbərlik edirəm. Neçə illərdir ki, biz Tələbələrin Ümumdünya Yay Universiadalarında iştirak edirik. Bu günə qədər mənim üçün ən yadda qalan yarış 2013-cü ildə Kazanda təşkil olunan universiadadır. Komandamız bu yarışda 17 medala sahib çıxmışdı. Bu nəticə ilə komanda hesabında 170 ölkə arasında 15-ci yeri tutmuşduq. Bu çox böyük nailiyyət idi. Komandamız bu yarışda bir neçə böyük dövlətlərin komandasını geridə qoymuşduq. Hətta qonşu ölkələrdən Türkiyə və İranı da qabaqlamışdıq. Bu yarış həm iştirakçılarımızın sayına, həm də nəticələrimizə görə ən böyük universiada idi. Elə bu günə qədər ən böyük nəticəni də Kazan Universiadasında əldə etmişik. Bu uğura görə həmişə fəxr edirəm. Yarışdan sonra Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev universiada qaliblərini qəbul etdi. Bu baxımdan Kazan Universiadası xatirəmdə ən unudulmaz yarış kimi qaldı.

***- Tələbə idmançılarımızın uğurlarında Sizin və təmsil etdiyiniz idarənin böyük rolu var. Tələbələrin idmana cəlb edilməsində başqa hansı tədbirlərin həyata keçirilməsi gözlənilir?***

- Təşkilatımız tərəfindən hər iki ildən bir, tələbələrin Respublika Spartakiadası keçirilir. Bundan başqa idman növləri üzrə milli çempionatlar keçiririk. İdman növlərini saysaq, demək olar ki, biz hər il 24 tədbir həyata keçiririk. Təqribən hər il 3 mindən artıq tələbə-gənc bu tədbirlərə cəlb olunur. Fikrimcə, bu, gözəl nəticədir. Bu sahədə bizə dəstək olan Gənclər və İdman Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və bu təşkilatın sədri Səttar Möhbalıyevin böyük zəhməti var. Həmçinin Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin Nadir Əliyev öz köməyini və dəstəyini bizdən əsirgəmir. Bundan başqa Təhsil İşçilərinin Azad Həmkarlar İttifaqlarının Respublika Komitəsi 2007-ci ildən bu günə kimi, bizə böyük dəstək və maddi yardım göstərir. Bizə dəstək olan bütün təşkilatlara minnətdarlığımı bildirirəm. Fikrimcə, bugünkü gündə gördüyümüz işlər qənaətbəxşdir. Çalışacağıq ki, uğurlu fəaliyyətimizi bundan sonra da davam etdirək.

*Azər Əlizadə*



## WAKO prezidenti federasiya rəsmiləri ilə görüşüb

Milli Məclisin sədrinin müavini, Parlamentin gənclər və idman komitəsinin sədri Adil Əliyev Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyevin dəvətilə Bakıya işgüzar səfərlə gələn Kikboksinq Təşkilatları Ümumdünya Assosiasiyasının (WAKO) Prezidenti Roy Beyker ilə görüşüb.

Görüşdə həmçinin Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev, Milli Məclisin gənclər və idman komitəsinin üzvü Şahin Seyidzadə, Milli Məclisin sədr müavinin köməkçisi Bəhruz Müslümov, AKF-nin Baş katibi və milli komandanın rəisi Sadıx Bağırov iştirak edib.

Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sədr müavini Adil Əliyev ölkəmizin Avropa Oyunları, İslam Həmrəylik Oyunları, Formula 1 kimi dünya şöhrətli yarışların ən yüksək səviyyədə təşkilatçısı olduğunu diqqətə çatdırıb.

O, ölkəmizdə kikboksinq idman növünə xüsusi maraqla diqqət çəkərək, onun Azərbaycanda ən populyar idman növlərindən biri olduğunu qeyd edib.

Vitse-spiker dünyada geniş yayılmış COVID-19 infeksiyasının idman sahəsinə də çox ciddi təsirlərinin olduğunu qeyd edərək, bu təsirlərin II Dünya müharibəsinin idmana vurduğu zərərə bərabər olduğunu bildirib. O, nəzərə çatdırıb ki, dünyada bu virusun geniş yayılmasına baxmayaraq, ölkə başçısının göstərişinə əsasən aparılan sistemli və ardıcıl işlər nəticəsində yoluxma sayı minimuma endirilib.

Görüş zamanı idmançılarımızın uğurlarından danışan Adil Əliyev, eləcə də 2020-ci ilin şanlı tariximizə Zəfər ili olaraq düşməsini, Ermənistanın 30 il müddətində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarını, BMT TŞ-nin dörd qətnaməsini kobud şəkildə pozaraq torpaqlarımızı işğal altında saxladığını, təxribatlar törətməsini və nəhayət, həyata keçirilən əks-hücum əməliyyatları nəticəsində düşmənin məğlub edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, müharibə bitsə də, Ermənistan minalanmış ərazilərimizin xəritələrini vermir, hərbçilərimiz, mülki vətəndaşlarımız minaya düşərək həlak olurlar, bu, hərbi cinayətdir.

Görüşdə iştirak edən Milli Məclisin gənclər və idman komitəsinin üzvü Şahin Seyidzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmanda kütləviliyin təmin edilməsinin gənc nəslin tərbiyəsindəki əvəzsiz rolunu qeyd edib.

Kikboksinq Təşkilatları Ümumdünya Assosiasiyasının prezidenti Roy Beyker Azərbaycan idmançılarının istər kikboksinq, istərsə də digər idman növlərində mütəmadi olaraq qazandıqları uğurların digər ölkələrə nümunə olduğunu bildirib. O, kikboksinq idman növünün ölkəmizdə geniş yayılması və burada nüfuzlu idmançıların hazırlanması sahəsində görülən işləri yüksək qiymətləndirib.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Voleybolçumuz “Panatinaikos” klubuna keçdi



Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Marqarita Stepanenko karyerasını Yunanıstanda davam etdirəcək. 28 yaşlı hücumçu “Panatinaikos” klubu ilə müqavilə imzalayıb. O, 2021/2022-ci il mövsümündə Afina təmsilçisinin uğurları üçün çalışacaq.

Voleybolçumuz bir müddət əvvəl Belarusun “Minçanka” klubu ilə yollarını ayırıb.

Qeyd edək ki, 2014/2015-ci il mövsümündə də Yunanıstanda oynayan M.Stepanenko “Olimpiakos”un formasını geyinib.

# 28 May - Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür



*Dilqəm Quliyev,*
*pedaqogika üzrə elmlər*
*doktoru, professor*

***Azərbaycan Cənubi Qafqazın və Ön Asiyanın ən qədim zəngin tarix və mədəniyyətinə malik bir ölkədir. Bəşər tarixinin bütün mərhələləri bu torpaqlarda öz silinməz izini qoyub. Qədim Azərbaycan tarixi çox qiymətli hadisələrlə zəngindir. Onu da qeyd etmək lazımdır ki, bu, zəngin tarixin həm də qanlı səhifələri vardır. Məlumdur ki, Azərbaycan öz geosiyasi vəziyyətinə görə bütün dövrlərdə nəhəng imperiyaların mübarizə obyekti olub, əraziləri işğal edilib, müəyyən mərhələdə öz dövlətçiliyini itirib, əhalisi isə dəfələrlə deportasiyaya, etnik təmizləmələrə və soyqırıma məruz qalıb.***

Azərbaycan tarixində fərəhli, şərəfli günlər də çoxdur. Ancaq bunların içərisində müstəqillik bayramı xüsusi yer tutur. Biz birinci dəfə deyil ki, müstəqil dövlət yaradırıq. XX əsrdə tale iki dəfə xalqımıza öz müstəqilliyini yaratmağa imkan vermişdir: 1918-1920-ci illərdə Azərbaycan xalq Cümhuriyyəti, 1920-1921-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikası və nəhayət, 1988-ci ildə baş verən hadisələrin davamı olaraq 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa edə bildik.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxıb. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olub. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub.

Ondan sonrakı sovet dövrü müstəqilliyimizin itirildiyi şəraitdə yaşadıqlarımız da tarixdən bizə yaxşı məlumdur. Çox da uzaq olmayan tariximiz 1988-1990-cı illər də yaxşı yadımızdadır. Belə ki, ermənilərin Dağlıq Qarabağı Azərbaycandan ayırmaq tələbləri, bunun ardınca məlum Sumqayıt hadisələri, hegomonluğunu itirmək istəməyən imperiyanın Bakıda törətdiyi Qanlı Yanvar hadisələri, bunların ardınca isə Azərbaycanın o zamankı rəhbərlərinin yetirdikləri siyasət ucbatından torpaqlarımızın bir qisminin itirilməsi baş verdi. Müstəqillik zərurəti bax belə bir şəraitdə yarandı. Məlum olduğu kimi müstəqillik asanlıqla qazanılmadı. O, Azərbaycanın mərd oğul və qızlarının qanı bahasına əldə edildi. Nəhayət, 1991-ci ilin oktyabrında Azərbaycan özünün itirilmiş müstəqilliyini yenidən bərpa etdi. Bu, çox böyük tarixi hadisə, xalqımızın həyatında yeni bir dönüş nöqtəsi idi. Biz yenidən bir çox xalqlar kimi



azad və müstəqillik şəraitində yaşayaraq demokratiya yolu ilə irəliləyib, öz müstəqil dövlətimizi yaratmaq imkanı əldə etdik. Dünya dövlətləri sırasına çıxmaq, Azərbaycan adını, Azərbaycan dövlətini dünyaya tanıtmaq imkanı əldə etdik. Lakin təəssüflər olsun ki, bu səvincimiz içərisində çox acılı, məşəqqətli günlərlə rastlaşdıq. 1991-1993-cü illərdə müstəqillik yollarında çox böyük çətinliklər, bəlalarla üz-üzə dayandıq. Qarışıqlıq, xaos, böyük qorxu, nigarançılıq, müsibətlər şəraitində yaşamalı olduq. Nəhayət, 1993-cü ilin iyununda ölkə vətəndaş müharibəsi, qardaş qırğını təhlükəsi ilə üz-üzə dayandı. Belə bir şəraitdə nəinki müstəqilliyimizin itirilməsi, bütövlükdə Azərbaycanın itirilməsi təhlükəsi yarandı. Belə bir şəraitdə ölkənin güclü bir liderə ehtiyacı yarandı. Belə bir şəraitdə xalq üzünü Heydər Əliyevə tutdu. Xalq başa düşdü və yəqin etdi ki, onu bu çətin və ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi bacarıqlı, uzaqgörən, qətiyyətli bir rəhbər çıxara bilər.

Beləliklə, Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qaydışı ilə Azərbaycan tarixinin, bərpa edilmiş müstəqilliyimizin yeni bir dövrü başlandı. Azərbaycan xalqının, dövlətçiliyi, müstəqilliyi xilas edildi.

İndi həmin vaxtdan 30 il keçir. Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, 1991-ci ildə yenidən bərpa edilmiş müstəqilliyimizin tarixi elə 1993-cü ildə də başa çatmış olacaqdı.

Ümummilli liderin ölkə rəhbərliyinə qayıdışından sonra illərlə davam edən siyasi hakimiyyət böhranı, anarxiya və özbaşınalığa son qoyuldu. Azərbaycanda yeni tarixi mərhələ-dövlət müsəqilliyinin möhkəmləndirilməsi, real quruculuğu başlandı.

Bu dövrdə Azərbaycanın iqtisadi-siyasi həyatında mühüm demokratik dəyişikliklər baş vermiş, aqrar islahatların aparılması haqqında qanunlar, eyni zamanda özəlləşdirmə qanunu və konsepsiya qəbul edilmişdir. Azərbaycanda iqtisadi potensialı hərəkətə gətirmək, maliyyə sistemində köklü dəyişikliklər sahəsində ciddi addımlar atılmışdır.

Onun uzaqgörən siyasəti addım-addım böyük Çin səddini keçib Avropaya pəncərə açdı, BMT-nin yüksək kürsüsündən dünyaya yayıldı. Azərbaycanın haqq sözünü deyənlərin sayı artdı.

Azərbaycan xalqı bu günkü həyata asanlıqla çatmamış, böyük mübarizə yolu keçmişdir. Biz XXI əsrdə xalqımızın mübarizəsi, başına gətirilən müsibətlər haqqında əsl həqiqəti gəncliyə vaxtında çatdırmalı, onları mənəvi cəhətdən ruhlandırmalı, tarixin qanlı hadisələrini unutmamağa və gələcəyə ümidlə baxmalıyıq.

Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan ümummilli lider Heydər Əliyev ölkəmizi böhrandan tərəqqiyə aparan yolun təməlini qoydu. Ərazi bütövlüyünün bərpası istiqamətində döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafında misilsiz xidmətlər göstərdi. Ulu öndər Heydər Əliyevin müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçərək bölgənin ən güclü qüvvəsinə çevrilmiş, bu siyasət Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirilərək əzəli torpaqlarımız düşmən tapdağından azad edilmişdir.

Ümummilli lider Heydər Əliyevin xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə 44 gündə son qoyulmaqla şanlı tariximizə əbədi həkk olunan möhtəşəm zəfər səlnaməsi yazıldı.

Hər bir azırbaycanlının borcudur ki, ümummilli lider Heydər Əliyevin bizə miras qoyduğu müstəqil dövlətçilik ənənələrini göz bəbəyi kimi qoruyaq. Onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşək, Azərbaycan naminə yaşayaq, yaradaq.

## ADBTİA Böyük Britaniyanın qabaqcıl ali təhsil ocağı ilə əməkdaşlığa başlayıb

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) Böyük Britaniyanın qabaqcıl ali təhsil ocağı olan Liverpool John Moores Universiteti ilə əməkdaşlığa start verib. ADBTİA-nın mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Dövlət



Bədən Tərbiyəsi və İdman Akademiyasının Liverpool John Moores University ilə əməkdaşlığı çərçivəsində ingilis dilində tədris olunan "İdman jurnalistikası" magistr proqramının sertifikatlaşdırılmış modulunun tədrisi həyata keçirilib və proqramın sonunda magistrantlara Liverpool Screen School adından kursu tamamladıqlarına dair sertifikatlar təqdim olunub.

Təqdimat mərasimində Liverpool John Moores University Screen School-un direktoru, professor Rachel McLean və kursun müəllimi Pete Leydon, həmçinin ADBTİA-nın tədris və elmi işlər üzrə prorektoru Təhminə Tağızadə və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elnur Məmmədov iştirak ediblər.

Tədbirdə Liverpool John Moores Universiteti tərəfindən qeyd olunub ki, bu gün universitetləri bir araya gətirən məhz idmanın gücüdür. Bununla yanaşı, vurğulanıb ki, ADBTİA-nın Liverpool John Moores Universitet ilə əməkdaşlıq etməsi, həm Akademiyanın Avropa təhsil sisteminə inteqrasiya olmasına, həm də gələcək perspektivlərin genişlənməsinə şərait yaradır.

Məzunlar isə öz növbəsində bu modulun yüksək səviyyədə tədris olunmasını xüsusi qeyd edərək onların peşəkar fəaliyyətlərində əvəzsiz rol olacağını vurğulayıblar.

Qeyd edək ki, 2017-ci ildən tədrisi ingilis dilində aparılan "İdman tibbi və reabilitasiya", "İdman jurnalistikası" və "İdman menecmenti" magistr proqramları, müvafiq olaraq Böyük Britaniyanın University College London (UCL), Sheffield Hallam Universiteti və Almaniyanın Tübingen Universiteti ilə əməkdaşlıq çərçivəsində tədris olunur.

## Bədən Tərbiyəsi və İdman Akademiyası ilin ən yaxşısı seçilib

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 2020-ci ildə "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi" adı uğrunda elan edilmiş müsabiqəyə yekun vurulub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasından (ADBTİA)verilən məlumata görə, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə əsasnaməyə uyğun olaraq, Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin nəzdində olan bütün təşkilatlar təftiş edilib. Müsabiqənin yekunları ilə bağlı keçirilən tədbirdə Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova, AHİK-in Əməyin mühafizəsi şöbəsinin müdiri Vladimir Arqutkin, ADBTİA-nın prorektoru Rizvan Əliyev və başqaları iştirak ediblər.



Kollektiv müqavilədə əməyin mühafizəsi və əmək şəraiti, əməyin yaxşılaşdırılması və təhlükəsizliyinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, ictimai müvəkkillərin və səlahiyyətli nümayəndələrin apardığı yoxlamalar, əməyin mühafizə xidməti, işçilərin normalara müvafiq sanitar-məişət xidmətləri ilə təmin olunması, işçilərin həyatına və sağlamlığına təhlükə törədən işlərin aradan qaldırılması üçün görülən işlər və koronavirus pandemiyası ilə əlaqədar tədbirlərin yüksək səviyyədə təşkilinə görə ADBTİA müsabiqənin qalibi elan olunub.

ADBTİA-nın kollektivi "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə 2020-ci ildə keçirilən respublika müsabiqəsinin nəticələrinə görə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən fəxri diplomla təltif edilib.

## Boksçularımız beynəlxalq turnirdən 7 medalla qayıdıblar

Monteneqronun Budva şəhərində gənc və yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. 15 ölkənin iştirak etdiyi yarışda Azərbaycan milli komandası mübarizə aparıb. Turnirə Vaqif Kazımovun rəhbərlik etdiyi yeniyetmələrdən ibarət yığma qatılıb. Budvaya 10 boksçu ilə yollanan komandamız 3 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olub.

Millimizin 3 üzvü turnirin qalibi olub. Kənan Babayev (48 kq) finalda Gürcüstanı təmsil edən Oruc Əhmədovu, Məhəmmədəli Qasımzadə (54 kq) bolqarıstanlı Viktorio İliyevi, Sənan Hətəmov (63 kq) ukraynalı Oleq Sapijakı məğlub edərək qızıl medala yiyələnib.

Digər təmsilçilərimiz Tofiq Quliyevlə (46 kq) Ziya Həsənov (66 kq) həlledici görüşdə məğlub olaraq ikinci yeri tutublar. Yığmamızın üzvləri İbrahim Zeynalov (50 kq) və Xaqani Quliyev (+80 kq) isə bürünc medalla kifayətləniblər.

Qeyd edək ki, yarış bu ilin iyul ayında Gürcüstanın paytaxtı Tbilisidə keçiriləcək Avropa birinciliyinə hazırlıq xarakteri daşıyıb.




## "Neftçi" Azərbaycan çempionatının qalibi oldu



Futbol üzrə Azərbaycan Premyer Liqasının 2020-2021-ci il mövsümünün çempionu müəyyənləşib. XXVIII turun sonuncu matçında çempion komandanın adına aydınlıq gəlib. Son turadək 57 xalla lider olan "Qarabağ" ondan bir xal az toplayan "Neftçi"nin qonağı olub. "Dalğa Arena"dakı matç 1:0 hesabı ilə "Neftçi" klubunun qələbəsi ilə başa çatıb. Oyunda yeganə qolun müəllifi 90-cı dəqiqədə Əhməd Əhmədov olub.

Bununla da xalını 59-a çatdıran "Neftçi" "Qarabağ"ın ardıcıl 7 mövsümlük çempionluğuna son qoyub və qızıl medallara yiyələnib. Bu, flaqmanın 9-cu çempionluğu olub.

"Neftçi" UEFA Çempionlar Liqasında iştirakı təmin edib. "Qarabağ" isə 2021-2022-ci il mövsümündə UEFA Konfrans Liqasında iştirak edəcək.

Qeye edək ki, Bakının "Neftçi" klubu oyundan sonra çempionluq kubokunu İkinci Fəxri xiyabana aparıb. Kollektiv komandanın azarkeşləri, Vətən müharibəsi şəhidləri mayor Rüfət Əsgərov və leytenant Teymur Məcidzadənin məzarını ziyarət edib. Onlar çempionatın baş mükafatını şəhid hərbçinin məzarı üstünə qoyaraq, ruhuna dualar oxuyublar.

Ziyarətdə klub prezidenti Kamran Quliyev, vitse-prezident Elnur Eyvazov, Samir Abasovun rəhbərlik etdiyi məşqçilər heyəti və bütün futbolçular iştirak edib.

## *Qılıncoynadanımız Rusiyada ikinci yeri tutdu*

Azərbaycan qılıncoynadanı Rusiyada keçirilən turnirdə gümüş medala sahib olub.

Sablya üzrə qadınlardan ibarət milli komandamızın üzvləri Anna Başta, Səbinə Kərimova və Sevil Bünyatova Sankt-Peterburqda keçirilən Ümumrusiya açıq turnirində iştirak ediblər.

Qrup mərhələsini dörd qələbə ilə başa vuran Anna Başta pley-offda da uğurlu çıxışı ilə yadda qalıb. Rusiyanın güclü



sablyaçılarının yarışdıqları turnirdə A.Başta finalda Olqa Nikitinaya 6:15 hesabı ilə uduzaraq turnirin gümüş medalına layiq görülüb. Qrup mərhələsini uğurla adlayan Səbinə Kərimova və Sevil Bünyatova isə mübarizəni pley-offda dayandırıb.

## "Neftçi" klubunun Müşahidə Şurasının iclası keçirilib

"Neftçi" PFK-nın Müşahidə Şurasının iclası keçirilib. Klub prezidenti Kamran Quliyev, vitse-prezident Elnur Eyvazov, A komandanın baş məşqçisi Samir Abasov, B komandanın baş məşqçisi Mahmud Qurbanov, Media, Marketinq və İctimaiyyətlə Əlaqələr Departamentinin rəisi Rüstəm Allahverdiyev ötən mövsümlə bağlı hesabat veriblər.

Kamran Quliyev infrastruktur, akademiya və klubdakı işlər, Elnur Eyvazov maliyyə məsələləri, Samir Abasov və Mahmud Qurbanov öz komandaları, Rüstəm Allahverdiyev isə media və marketinq haqda ümumi məlumat verib.

Daha sonra Müşahidə Şurasının üzvləri ilə yeni mövsüm üçün hədəf və məqsədlər haqqında müzakirələr aparılıb, fikirlər dinlənilib.

Sonda Müşahidə Şurasının üzvləri çempionluq münasibətilə bütün heyəti təbrik edib və komandanın qarşısına yeni mövsümlə bağlı hədəflər qoyub.

## *Millimiz Qızıl Avropa Liqasına hazırlaşır*

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Qızıl Avropa Liqasında iştirak edəcək. Pandemiya səbəbindən uzun müddətdir yarışlardan kənar qalan voleybolçularımız artıq məşqləri bərpa ediblər. Millimiz Qızıl Avropa Liqasında Fransa, Rumıniya və İspaniya seçmələri ilə "A" qrupunda yarışacaq. Komandamız turnirdə məşqçi Vüqar Əliyevin rəhbərliyi altında mübarizə aparacaq. Ona Eldar Yusubov və Famil Ağayev kömək edəcəklər.

Qızıl Avropa Liqasında ilk dövrənin oyunları mayın 28-dən 30-dək Rumıniyada keçiriləcək. Daha sonra komandamız Fransaya yollanacaq. Buradakı qarşılaşmalar iyunun 4-dən 6-dək təşkil olunacaq.

## Komandamızın rəqibləri müəyyənləşib

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin Avropa çempionatının final mərhələsindəkirəqibləri müəyyənləşib. Avqustun 18-dən sentyabrın 4-dək keçiriləcək qitə yarışın həlledicimərhələsinə Bolqarıstan, Rumıniya, Serbiya və Xorvatiya ev sahibliyi edəcək. Serbiyanın paytaxtı Belqradda keçirilən püşkün nəticəsinə əsasən, komandamız "A" qrupunda yarışacaq.




Voleybolçularımızın rəqibləri Serbiya, Rusiya, Belçika, Fransa, eləcə də Bosniya və Herseqovina yığması olacaq. Seçməmizin oyunları Belqraddakı "Ştark Arena"da keçiriləcək. İştirakçılar hərəsində 6 komanda olmaqla, 4 qrupda mübarizə aparacaqlar.

"B" qrupunda Bolqarıstan, Polşa, Almaniya, İspaniya, Çexiya, Yunanıstan, "C" qrupunda Xorvatiya, İtaliya, Belarus, Slovakiya, Macarıstan, İsveçrə, "D" qrupunda isə Rumıniya,Türkiyə, Hollandiya, Ukrayna, Finlandiya və İsveç yığmaları yer alıb.

Qruplarda ilk 4 yeri tutan komandalar növbəti mərhələyə yüksələcəklər.

Pley-off və dörddəbir final mərhələsinin görüşləri Belqrad və Plovdiv şəhərlərində təşkilolunacaq. Mükafatlar uğrunda matçlar isə Serbiyada keçiriləcək.

## Dünya kubokunda Azərbaycan şahmatçıları da mübarizə aparacaqlar

Beynəlxalq Şahmat Federasiyası (FIDE) qadınlar arasında dünya kubokuna vəsiqə qazanan oyunçuların siyahısını açıqlayıb. Turnirdə Azərbaycanın 3 şahmatçısı iştirak edəcək. Belə ki, Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva və Türkan Məmmədyarova Avropa çempionatının nəticələrinə görə, dünya kubokunda iştirak etmək hüququ qazanıblar.

Turnir iyulun 10-da start götürəcək.



## Cüdo üzrə milli komandamızın üzvləri Almaniyada

Almaniyanın Hennef şəhərində cüdo üzrə beynəlxalq təlim-məşq toplantısı keçirilir.

Toplantıda Avropanın ən güclü cüdoçuları ilə yanaşı, Azərbaycan millisinin də üzvləri iştirak edirlər. Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə keçirilən məşqlərdə Azərbaycan cüdoçuları ilə yanaşı, Fransa, Almaniya, İtaliya, Belçika, Avstriya, Çexiya, Serbiya və digər ölkələrin yığmaları iştirak edir.

Hennef toplanışında Olimpiya, dünya, qitə çempionatlarının mükafatçıları, onların məşqçiləri iştirak edirlər. Milli komandamızın üzvləri baş məşqçi Ruslan Maşurenko və məşqçi Elxan Məmmədovun başçılığı altında gündə 2 dəfə məşq edərək, yaxın gələcəkdə keçiriləcək dünya çempionatı və Olimpiya Oyunlarına hazırlaşırlar.



## *Bir cümlə, bir xəbər*

"Atletiko Madrid" səfərdə "Valyadolid"ə (2:1) qalib gələrək, tarixində 11-ci dəfə İspaniya La Liqasının qalibi olub.



* * *

PAOK Yunanıstan kubokunun finalında "Olimpiakos"u 2:1 hesabilə məğlub edərək, klub tarixində 8-ci dəfə ölkə kubokunu qazanıb.

* * *

Bundesliqada 2020/2021 mövsümündə 41 qol vuran "Bavariya"nın futbolçusu Robert Levandovski "Qızıl buts"un sahibi olub.

* * *

Fransa çempionatında "Lill" son turda səfərdə "Anje"yə 2:1 hesabı ilə qalib gələrək, 83 xalla 2020/2021 mövsümünün qalibi müəyyənləşib.

* * *

FİFA koronavirus pandemiyası ilə əlaqədar zərərə uğrayan milli federasiyalara dəstək olaraq, 1,5 milyard ABŞ dolları ayırıb.

* * *

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkə çempionu və kubokun sahibi "Beşiktaş" komandasını qəbul edib.

* * *

1,2 milyard avroya yaxın borcu "Barselona"nın prezidenti Xuan Laporta klubun iqtisadi gücünü artırmaq məqsədiylə 500 milyon avro kredit götürüb.

* * *

BATE Belarus kubokunun finalında "İsloç" u 2:1 hesabilə məğlub edərək, klub tarixində 8-ci dəfə ölkə kubokunu qazanıb.

* * *

Madrid "Real"ı 11 ildən sonra ilk dəfədir ki, mövsümü mükafat qazanmadan yekunlaşdırıb.

* * *

"Liverpul"un niderlandlı yarımmüdafiəçisi Corcinyo Veynaldum yeni mövümdən etibarən "Barselona"nın formasını geyinəcək.

Olimpiya Oyunlarının tarixindən

# Son nəfəslərini Olimpiya Oyunlarında verən idmançılar

***Qalib olmaq hər bir idmançının arzusudur. Qələbəyə gedən yol isə bəzən uzun, bəzən də qısa olur. Amma təəssüf ki, bəzən də bu yol həyəcanla gözlənilən yarışın tam mərkəzində əbədi olaraq yarıda dayanır. Hər zaman oxucularına maraqlı yazılar təqdim edən "Olimpiya dünyası" qəzeti bu dəfə də ənənəsinə sadiq qalıb. Budəfəki mövzumuz planetin ən mötəbər yarışı olan Olimpiya Oyunlarında baş verən ölüm hadisələridir. Gecə-gündüz bilmədən məşq edən, Olimpiya zirvəsinə ucalmaq xəyalı ilə alışıb-yanan neçə-neçə idmançının arzusu ölümü ilə əbədiyyətə qovuşub. Bu yazımızda həmin idmançıların ən məşhurlarından bir neçəsini oxucularımıza təqdim edəcəyik.***

## Məğlubiyyəti deyil, ölümü seçən atlet

Rəsmi olaraq tarixdə ilk dəfə yarışlarda baş verən ölüm hadisəsi antik dövrə təsadüf edir. Belə ki, bizim eradan əvvəl 564-cü ildə Arrihion adlı pankrationçu boğulma fəndindən qurtula



bilməyib. Əvvəlcə Arrihion rəqibinin boğulma fəndinə güc gələn onun ayaq barmağını sındırmağa nail olub. Nəticədə hakim dəhşətli ağrılara tab gətirə bilməyən rəqibin təslim olduğunu qeydə alıb. Amma Arrihion qələbəsini qeyd edə bilməyib. Belə ki, o artıq dünyasını dəyişmişdi. Məğlubiyyəti deyil, ölümü seçən idmançının cansız bədənini azarkeşlərin alqış sədaları altında çələnglə təltif ediblər.

## "Fortepiano qəbristanlığı"



Portuqaliyalı idmançı Fransisku Lazaru 1912-ci ildə İsveçin Stokholm şəhərində keçirilən V Yay Olimpiya Oyunları marafonunun favoritlərindən biri idi. Yarış günü hava 30 dərəcədən isti olduğu üçün idmançı kiçik bir hiyləgərliyə əl atdı. Belə ki, o, dəhşətli istinin ona mane olması və dərisini günəş şüalarından qorumaq üçün bədəninə şam çəkmək qərarına gəldi. Lakin Fransisku bu qərarın onu nəinki günəşdən qorumayacağını, hətta həyatına son qoyacağın ağlına belə gətirmirdi. Belə ki, şam dəridə olan məsamələrə dolaraq, tərin təbii yolla buxarlanmasının qarşısını aldı. Bu da yüksək miqdarda tərin ifraz olunmasına və idmançının orqanizmində maye balansının ciddi pozulmasına səbəb oldu. Beləliklə, kiçik bir yalnışlıq nəticəsində 21 yaşlı F.Lazaru marafonun 29-cu km-də yerə yıxılaraq, susuzluqdan vəfat etdi.

Maraqlı bir faktı da qeyd edək ki, portuqaliyalı yazıçı Joze Luiş Peyşotu 2006-cı ildə yazdığı "Fortepiano qəbristanlığı" romanını Fransisku Lazarunun ölümü əsasında qələm alıb.

## Ölümündən sonra qazanılan qızıl medal

22 yaşlı Elişka Misakova Çexoslovakiya millisinin tərkibində Olimpiya Oyunlarının qızıl medalını qazanmağı xəyal edirdi. O, 1948-ci ildə Londonda keçirilən XIV Yay Olimpiya



Oyunlarına böyük həvəslə yola düşmüşdü. Lakin elə təyyarədə gimnastın hərarəti yüksəldi, özünü pis hiss etməyə başladı. Əvvəlcə hər kəs Elişkanın sadəcə, soyuqladığını düşünsə də, onun vəziyyəti daha da pisləşir, əl və ayaqları tutulurdu. Tezliklə idmançı London xəstəxanalarının birinə yerləşdirildi. Həkimlər Elişkaya qorxunc diaqnoz-poliomiyelit (uşaq onurğa iflici) təyin etdilər.

Həkimlərin səylərinə baxmayaraq, böyük xəyallar ilə Londana gələn idmançını xilas etmək mümkün olmadı. Elişkanın bacısı gimnast Miloslava Misakova isə acısını dəf edib, Çexoslovakiya millisinin qələbə qazanması üçün meydana çıxdı. Elişka mübarizədə iştirak etmək qismət olmasa da, Çexoslovakiya millisi Olimpiadanın qalibi oldu. Olimpiya Oyunlarının mükafatlandırma mərasimində Elişkanın qızıl medalı bacısı Miroslavaya təqdim edildi. Qalib komandanın şərəfinə qaldırılan Çexoslovakiya bayrağına isə qara matəm lenti bağlanıldı.

Hadisədən sarsılan Çexoslovakiya komandası Olimpiya Oyunlarının bağlanış mərasimini qalib kimi deyil, azarkeş kimi tribunalardan izlədi. Həmin vaxt millinin üzvlərindən biri: "Biz əylənmək və gülmək əhval ruhiyyəsində deyildik", - deyə bildirmişdi.

Qeyd edək ki, Elişka Misakova Olimpiya Oyunlarının tarixində ölümündən sonra qızıl medal ilə təltif olunan yeganə idmançıdır.

## Qızıl medala 20 km qalmış...

1960-cı ildə Romada keçirilən XVII Yay Olimpiya Oyunları velosipedçisi Knut Yensen üçün Olimpiya deyil, ölüm hekayəsi oldu.



100 km-lik komanda yarışında mübarizə aparan 23 yaşlı danimarkalı idmançı finişə 20 km qalmış huşunu itirərək, yerə yıxıldı. Məlumata görə, havanın 40 dərəcə isti olması səbəbi ilə idmançının ürəyi tutmuşdu. Lakin təcili xəstəxanaya çatdırılan idmançının həyatını xilas etmək mümkün olmadı.

Araşdırmalarımız nəticəsində məlum oldu ki, K.Yensen uzun müddət dopinqdən istifadə edib. Belə ki, idmançının bədənində 20-ci illərin əvvəllərində icad edilmiş və İkinci Dünya Müharibəsi zamanı aktiv istifadə olunan amfetamin aşkarlanmışdı.

## "Ölüm trası"

1964-cü ildə Avstriyanın İnsbruk şəhərində keçirilən IX Qış Olimpiya Oyunları ərəfəsində dünya iki ölüm hadisəsi ilə üzləşdi. Belə ki, oyunlara iki həftə qalmış 55 yaşlı Polşa əsilli britaniyalı kirşəçi Kazimirs kay-Skrzimpeski məşq zamanı kirşəsinin yoldan çıxması nəticəsində həlak oldu. Həmin vaxt media nümayəndələri bu enişi "ölüm trası" adlandırdılar. Təşkilatçılar isə bu faciədən sonra dərhal təhlükəsizlik tədbirlərini gücləndirərək, təhlükəli yerlərə yumşaq balışlar yerləşdirdilər. Faciədən yeni-yeni ayılan azarkeşlər isə daha bir zərbə ilə üzləşdilər.

Yanvarın 25-də xizəklə sürətli eniş məşqlərində 19 yaşlı avstraliyalı Ross Miln trasdan çıxaraq, ağaca çırpıldı.

Qeyd etmək lazımdır ki, həmin vaxt dağ xizəkçiləri dəbilqəsiz çıxış edirdilər. Məhz bu faciəvi ölümlər Olimpiya Oyunlarının Təşkilat Komitəsinin kirşəçilərin və xizəkçilərin təhlükəzlik qaydalarına bir daha nəzər salmaq məcburiyyətində qoydu. Təşkilatçılar bobsley yarışlarında idmançıların trasdan çıxmasının qarşısını almaq üçün əlavə bortlar yerləşdirdilər. Dağ xizəkçilərini zədələrdən qorumaq üçün isə bütün ağacların gövdələri samanla əhatə olundu.

## "Qanlı" Olimpiya Oyunları

1972-ci ildə Münhendə (Almaniya) keçirilən yarışlar Olimpiya Oyunlarının tarixinə ən faciəvi hadisə kimi yazıldı. Hər bir detalı diqqətdə saxlamağa çalışan yarış təşkilatçıları əsas məqsədin təhlükəsizlik tədbirləri olduğunu unutmuşdular. Məhz buna görə, illərdir unudulmayan və Olimpiya tarixinə adını qara hərflərlə yazdıran hadisə baş verdi.

Belə ki, 1972-ci il sentyabrın 5-də Fələstinin "Qara sentyabr" terror təşkilatının bir neçə üzvü israilli idmançıları girov götürdü. Polis və



Almaniya Federativ Respublikasının xüsusi təyinatlılarının qeyri-peşəkar işi nəticəsində 11 girov həlak oldu. Hadisənin növbəti günü 3 min iştirakçının və 80 min izləyicinin iştirakı ilə matəm mərasimi keçirildi.

## Arzuları puç edən qar təmizləyən maşın

Spid-skiinq (sürətli eniş) 1992-ci ildə Albervildə (Fransa) təşkil olunan XVI Qış Olimpiya Oyunlarının proqramına nümunəvi idman növü kimi daxil edilmişdi. Bu yarışda idmançının məqsədi dağın müəyyən olunmuş hissəsində maksimum sürət yığmasıdır. Nikolya Boşate İsveçrə millisinin üzvü kimi yarışlarda iştirak



edirdi. İlkin təsnifat enişi zamanı idmançı saatda 210 km sürətlə irəliləyib, kişilər arasında 13-cü oldu. Lakin Olimpiya Oyunları Nikolyaya gözlədiyi qələbəni bəxş etmədi. Belə ki, fevralın 22-də final günü isinmə hərəkətləri zamanı idmançı qar təmizləyən maşınla toqquşaraq, yerindəcə həlak oldu.

Faciə Oyunların bitməsinə bir gün qalmış baş vermişdi və azarkeşlər arasında böyük çaşqınlıq yaratmışdı. Bundan sonra spid-skiinq Olimpiya Oyunlarının proqramından çıxarıldı.

## Matəmə çevrilən Olimpiya Oyunları

Bütün dünyadan minlərə azarkeş və idmançı 2010-cu ildə keçirilən XXI Qış Olimpiya Oyunlarının canlı şahidi olmaq üçün Vankuverə (Kanada) gəlmişdi. Hər kəs möhtəşəm açılış mərasimini həyəcanla gözləyirdi. Lakin hər şey gözlənildiyi kimi olmadı və bir anda insanların üzündəki sevinc kədər ilə əvəzləndi. Belə ki, gürcüstanlı kirşəçi Nodar Kumaritaşvili olimpiadanın açılışından bir gün əvvəl məşq zamanı hə-



lak oldu. Saatda 140 km sürətlə hərəkət edən idmançı sonuncu döngədən çıxarkən, dəmir dirəyə çırpıldı. Təəssüf ki, 21 yaşlı idmançı elə yerindəcə dünyasını dəyişdi. 2010 Olimpiadasının Təşkilat Komitəsinin nümayəndələri Nodarın ölümünün öz günahı səbəbindən baş verdiyini qeydə aldılar. "İdmançı 15-ci döngədən gec çıxdı və bu səbəbdən də növbəti döngəyə gecikdi. Nəticədə isə N.Kumaritaşvilinin cəhdlərinə baxmayaraq, kirşələr üzərində nəzarəti itirdi, bu da qaçılmaz faciə ilə sonlandı", - Təşkilat Komitəsinin nümayəndələri bildiriblər.

İdmançı olmaq da insan taleyinin bir hissəsidir. Kimisinin alınına ən yüksək zirvəni fəth etmək, kimisinə isə çempionluğun bir addımlığında məğlub olmaq yazılıb. Kimisi də zirvəyə gedən yolda ani bir diqqətsizlik səbəbindən həyatla vidalaşır. Görünür ki, belə idmançılar üçün Olimpiya Oyunlarının qızıl medalı həyatlarından daha əhəmiyyətlidir. Təbii ki, belə bədbəxt hadisələrdən illərin keçməsinə baxmayaraq, idman yarışlarında dünyasını dəyişən atletlər tamaşaçıların xatirəsindən silinməyəcək.

*Hazırladı:*
*Türkay Niftəliyeva*



# Dünya idmanı

## Qvardiola dünyanın ən yaxşı məşqçisi seçilib



"FourFourTwo" nəşri dünyanın ən yaxşı 50 məşqçisinin adlarını açıqlayıb.

Siyahıya "Mançester Siti" klubunun baş məşqçisi Xosep Qvardiola başçılıq edir. İkinci yerdə Antonio Konte ("İnter"), üçüncü pillədə isə Dieqo Simeone ("Atletiko") qərarlaşıblar.

İlk onluqda sonrakı yerləri Yurgen Klopp ("Liverpul"), Yulian Naqelsmann ("Leyptsiq"), Hans-Diter Flik ("Bavariya"), Tomas Tuhel ("Çelsi"), Maurisio Poçettino (PSJ), Can Pyero Qasperini ("Atalanta"), Brendan Rocers ("Lester") tutublar.

Xatırladaq ki, X.Qvardiola 2016-cı ildən "Mançester Siti"yə rəhbərlik edir. Onun rəhbərliyi ilə cari mövsümdə İngiltərə çempionatının qalibi olan komanda, həmçinin UEFA Çempionlar Liqasının finalında "Çelsi" ilə qarşılaşacaq.

## Lider dəyişdi

"Red Bull" komandasının niderlandlı pilotu Maks Festappen Formula 1 üzrə Manoka Qran Prisinin qalibi olub.

Yarışı ikinci yerdə "Ferrari" komandasının ispaniyalı pilotu Karlos Sayns, üçüncü yerdə isə "McLaren" komandasının britaniyalı pilotu Landro Norris başa vurub.

M.Festappen Monako Qran Prisinin qalibi olaraq xallarının sayını 105-ə çatdırıb və mövsümdə birinci yerə yüksəlib.



## "Şəhərlilər" oyun formasını okeanın dibində təqdim etdi

İngiltərə millisinin və "Mançester Yunayted"in sabiq futbolçusu Devid Bekhemə məxsus ABŞ-ın "İnter Mayami" klubu yeni formasını okeanın dibində təqdim edib.

Yeni geyimlər ətraf mühitin, o cümlədən, okeanların çirkləndirilməsi probleminə həsr olunub. Formanın 50 faizi yenidən işlənilmiş plastik maddələrdən ibarətdir. Dəstlər çiyinlərində narıncı zolaqları olan parlaq mavi rəngdədir.

Qeyd edək ki, "İnter Mayami" yeni forma ilə ilk dəfə mayın 30-da "Di-Si Yunayted"ə qarşı oynayacaq. Geyim dəstini model Koral Tomaşik təqdim edib. Tomaşik bundan ötrü okeanın 30 metr dərinliyinə baş vurub.

**olimpnews.az - sizin saytınız**



## Leo Messo "Arsenal"da 9 nömrəli formanı geyinəcək

"Arsenal" akademiyası üçün maraqlı transferə imza atıb. "Topçular" 10 yaşlı futbolçu Leo Messonu heyətinə cəlb edib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Adı Lionel Messidən götürülən keniyalı oyunçu London təmsilçisinin azarkeşlərinin də diqqətini cəlb etməyi bacarıb. Messo klubun aşağı yaş qruplarından ibarət komandasında 9 nömrəli formanı geyinəcək.



Qeyd edək ki, Messo daha əvvəl "Vest Hem"in akademiyasında olub.

## Maradonanın ölümü ilə bağlı yeni iddia

Əfsanəvi argentinalı futbolçu Dieqo Armando Maradonanın ölümünü araşdıran prokurorlar 7 nəfəri sabiq idmançının "mümkün hesab edilən ölüm" niyyətində ittiham ediblər. Bu barədə "Marca" qəzeti bildirib.

San-İsidro şəhərinin Baş Prokurorluğu məhkəmənin hakiminə ittiham olunan şəxslərin Argentinanı tərk etməsinə qadağa qoymasını xahiş edib və onların hamısını ifadə verməyə çağırıb.

İşdə adı keçənlərin hamısı ötən ilin noyabrında Maradonanın ölümündən əvvəl ona baş çəkən həkimlərdir.

Yaxın günlərdə tibb bacıları - Rikardo Omar Almiron və Daxiana Qizela Madrid, tibb bacılarının koordinatoru Mariano Perroni, keçmiş futbolçunun ev şəraitində müalicə olunmasına nəzarət edən həkim Nensi Forlini, psixoloq Karlos Anxel Dias, psixiatr Aqustina Kazaçev və Maradonanın şəxsi həkimi, neyro-cərrah Leopoldo Luke dindiriləcəklər.

Prokurorluq tibbi komissiyanın hesabatının alınmasından sonra onların hamısını güman olunan ölümdə ittiham etməyə qərar verib.



Qeyd edək ki, 11 ekspert ölümünün başvermə şəraitini qiymətləndirib. Yerli KİV-də yayılmış məruzədən belə nəticə çıxır ki, Maradonaya baş çəkən tibb qrupunun işi qeyri-adekvat olub və pasiyentin sağlamlıq durumu taleyin ixtiyarına buraxılıb. Argentinada belə cinayətə görə 8 ildən 25 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

## Dünya çempionu həbs olundu

Hindistanın keçmiş sərbəst güləşçisi Suşil Kumar qətl şübhəsi ilə həbs olunub. 38 yaşlı keçmiş pəhləvan mayın 4-də stadionda bir nəfərin ölümü ilə nəticələnmiş davada iştirak edib.

O, həmin hadisədən sonra qaçıb gizlənib. Polis Kumar barədə informasiya verən üçün 1,4 milyon ABŞ dolları mükafat vəd edib. Tanınmış idmançı paytaxt Dehli ətrafındakı Mundka kəndində saxlanılıb.

Qeyd edək ki, Suşil Kumar 2010-cu il dünya çempionatında 66 kq çəki dərəcəsində qızıl medal qazanıb. O, həmçinin 2008-ci il Pekin Yay Olimpiya Oyunlarında bürünc, Hindistanın komandasının bayraqdarı olduğu London-2012-də gümüş medala sahib olub.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Zərifə Salahovaya, qardaşı Xalq rəssamı

**Tahir Salahovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Zərifə Salahovaya, qardaşı Xalq rəssamı

**Tahir Salahovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19